MIQATLAR

MIQATLAR

Hacıların Məkkəyə getdikləri yollar müxtəlif olduğu üçün təmättö ümrəsinin ehram bağlanan yerləri (miqatlar) müxtəlifdir. Bunlar aşağıdakı beş miqatdan ibarətdir:

Birinci, Zül-Hüleyfədəki Şəcərə məscididir. Bu, Mədinədən Məkkəyə gedənlərin miqatıdır.

Məsələ 1. Yalnız zərurət halında (məsələn: xəstəlik, zəiflik və s. ucbatından) ehramı Şəcərə məscidindən Cöhfəyə kimi təxirə salmaq caizdir.

Məsələ 2. Mədinə yolu ilə Məkkəyə gedən şəxslər üçün Şəcərə məscidindən xaricdə ehram bağlamaq kifayət etməz. Onlara məscidin daxilindən möhrim olmaq vacibdir.

Məsələ 3. Cünub və heyz olan şəxslər məsciddən keçən halda möhrim ola bilərlər. Amma gərək məsciddə dayanmasınlar.

İkinci, Əqiq vadisidir. Onun əvvəlinə “məsləx”, ortasına “qəmrə”, axırına isə “zatu-irq” deyilir. Bu, İraq və Nəcd tərəfdən Məkkəyə gedənlərin miqatıdır.

Üçüncü, Qərnul-mənazildir. Bu, Taif yolu ilə Məkkəyə gedənlərin miqatıdır.

Dördüncü, Yələmləmdir (dağ adıdır). Bu, Yəmən yolu ilə Məkkəyə gedənlərin miqatı sayılır.

Beşinci, Cöhfədir. Bu, Şam yolu ilə həccə gedənlərin miqatıdır.

Burada bir neçə məsələ vardır:

Məsələ 1. Əgər şəri dəlil hasil olsa, yəni iki adil şəxs şəhadət versələr ki, “filan məkan miqatdır”, axtarış və elm hasil etmək lazım deyil. Əgər elm və dəlil mümkün olmazsa, o yerləri tanıyan şəxslərdən soruşmaqla hasil olan zənn ilə kifayətlənə bilərlər.

Məsələ 2. Əgər miqatların heç birindən keçməyən bir yol ilə getsə, gərək miqatların müqabilində ehram bağlasın.

Məsələ 3. İxtiyari halda Cəddədə ehram bağlamaq caiz deyil və gərək ehram üçün beş miqatdan birinə getsin. Amma əgər bunun üçün qüdrəti olmasa, bu halda, ehtiyata əsasən, Cəddədə nəzir edib ehram bağlamalıdır.

Məsələ 4. Müqabillərdən məqsəd budur ki, Məkkəyə tərəf gedən şəxs elə bir yerə çatsın ki, miqat onun sağ və ya sol tərəfində olsun. Belə ki, əgər bu məkandan irəlidə olduqda miqat onun arxa tərəfinə meyilli olsun.

Məsələ 5. Miqata çatmazdan qabaq ehram bağlamaq caiz deyildir. Əgər ehram bağlasa da düz deyildir. Amma əgər miqatdan qabaqda olan bir yerdə ehram bağlamağa nəzir etsə, caizdir və həmin yerdə möhrim olmalıdır. Məsələn, əgər Qumda ehram bağlamağa nəzir etsə, nəzrinə əməl etməsi vacibdir.

Məsələ 6. İxtiyari halda ehramı miqatdan təxirə salmaq caiz deyildir. Əgər unudaraq, ya biməməzlik və ya başqa səbəblər üzündən miqatdan ehramsız keçib getsə, bu surətdə əgər miqata qayıda bilərsə, gərək qayıtsın və miqatda ehram bağlasın. Əgər miqata qayıda bilmirsə, belə ki, əgər hərəmə daxil olmuşdursa, gərək hərəmdən çıxsın və vacib ehtiyata əsasən, bacardığı qədər miqata yaxınlaşsın və orada ehram bağlasın. Əgər vaxtın darlığı və s. səbəblər üzündən hərəmdən çölə çıxa bilməsə, hərəmin daxilində (üzrünün aradan getdiyi yerdə) möhrim olmalıdır.

Məsələ 7. Əgər miqatdan ehramsız keçsə, vaxtın dar olmadığı surətdə keçdiyi

miqata qayıdaraq orada ehram bağlaması vacibdir (istər qarşıda başqa bir miqat olsun, istər olmasın).